# Sumqayıt Musiqi Kollecinin uğurları

**Sumqayıt Musiqi Kolleci 1961-ci ildən Asəf Zeynallı adına Bakı orta-ixtisas musiqi məktəbinin filialı kimi fəaliyyətə başlamışdır. Müstəqil tədris müəssisəsi kimi isə 1965-ci ildən fəaliyyət göstərir.**

**Bu günə kimi tədris müəssisəsini 6000 nəfərə yaxın gənc mütəxəssis bitirmişdir.**

Kollecdə 6 ixtisas üzrə — "İnstrumental ifaçılıq", "Xanəndəlik", "Vokal sənəti", "Xor dirijorluğu", "Musiqi nəzəriyyəsi", "Xalq çalğı alətləri" ixtisasları üzrə subbakalavr dərəcəli mütəxəssislər hazırlanır.

Tədrisin keyfiyyətini günün tələbləri səviyyəsinə qaldırmaq üçün respublikanın tanınmış görkəmli sənətkarları ustad dərsləri keçmək, metodiki - elmi köməklik göstərmək üçün kollecə dəvət edilirlər. Onlardan Azərbaycan Milli Konservatoriyasının professoru, Xalq artisti Arif Babayev, Xalq artisti Zabit Nəbizadə, professor, əməkdar incəsənət xadimi Vasif Allahverdiyev, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professoru, xalq artisti Canəli Əkbərov, Bakı Musiqi Akademiyasının professorları — əməkdar müəllim Elmira Əliyeva, Əməkdar incəsənət xadimi Ceyhun Allahverdiyev və başqalarını göstərmək olar.

Kollecin məzunları arasında respublikanın fəxri adlara layiq görülən sənətkarları, pedaqoq və ifaçıları vardır.

Həmçinin, müxtəlif səviyyəli Beynəlxalq və Respublika müsabiqələrində qalib yerlərə layiq görülən, kollecin onlarca tələbə və məzunları və bir nəfər də Prezident təqaüdçüsü vardır.

Fərəhlə qeyd etməliyik ki, 2018-ci il Sumqayıt Musiqi Kollecinin kollektivi üçün həqiqətən uğurlu olmuşdur. Dövlət tədris proqramlarının yerinə yetirilməsi ilə tələbələrin ifaçılıq məharətlərinin daha da inkişafı, eləcə də təkmilləşdirilməsi istiqamətində pedaqoji kollektiv səylə çalışmışdır.

Cari ildə kollecin tələbələri müxtəlif səviyyəli Beynəlxalq, Respublika müsabiqə və festivallarında uğurla iştirak edərək qalib yerlərə layiq görülmüşlər.

Belə ki, bəstəkar, SSRİ Xalq artisti, professor A.Məlikovun 85 illiyinə həsr edilmiş Təhsil Nazirliyinin və BMA-nın təşəbbüsü ilə keçirilən "Pianoçuların Respublika müsabiqəsi"ndə kollecin "İnstrumental ifaçılıq" şöbəsinin III kurs tələbəsi **Nəriman Məsimov** III dərəcəli diploma layiq görülmüşdür.

O, eyni zamanda həmin il respublika tələbələrinin ümumrespublika qurultayının bədii hissəsindəki konsertdə uğurla çıxış edərək bəstəkar Tofiq Quliyevin "Qaytağı" əsərini ifa etmiş və gurultulu alqışlarla qarşılanmışdır.

"İnstrumental ifaçılıq" şöbəsinin II kurs tələbəsi **Flora Umudova** Bakıda keçirilən DEL Festival-Consorso İnternasional Delle ARTİ" "Testne ART Baku" Beynəlxalq müsabiqəsində I dərəcəli diploma layiq görülüb.

O həmçinin Rusiya Federasiyasının Dağıstan Respublikasında keçirilən gənc istedadların IV beynəlxalq festivalında fortepiano nominasiyası üzrə I dərəcəli diplomla təltif edilmişdir.

Bundan başqa, Flora Umudova Bakıda keçirilən dahi bəstəkar Qara Qarayevin 100 illik yubileyinə həsr edilmiş və Fərhad Bədəlbəylinin sədrliyi ilə pianoçuların V Respublika elmi-ifaçılıq müsabiqəsində "Həvəsləndirici fərman"a layiq görülmüşdür.

Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində keçirilən "Невские перспективы" adlı XII Beynəlxalq festival müsabiqəsində II dərəcəli diploma layiq görülmüşdür.

Bu münasibətlə beynəlxalq münsiflər heyəti kollecin direktoru, Əməkdar müəllim Rasim Quliyevə təşəkkür məktubu ünvanlamışlar.

Kollecin direktoru təcrübəli musiqiçi R.Quliyev onu da qeyd etdi ki, ulu öndər Heydər Əliyevin 95 illiyinə həsr edilmiş "Gənc ifaçıların III Respublika müsabiqəsi"ndə də Umudova Flora "Fəxri fərman"la təltif edilmişdir.

3-10 dekabr 2018-ci il tarixlərində SSRİ xalq artisti **Fərhad Bədəlbəylinin** sədrliyi ilə Bakı Musiqi Akademiyasının keçirdiyi "Akademik, xalq və caz musiqisi" Respublika festivalında kollecin IV kurs tələbəsi (fortepiano) Rəşad Ağayev laureat adına layiq görülmüşdür.

Kollecin uğurlarını fəxrlə qeyd edən Rasim müəllim dedi ki, 2018-ci ildə Xalq artisti Ramiz Quliyevin sədrliyi ilə Bakıda keçirilən, bəstəkar Hacı Xanməmmədovun 100 illik yubileyinə həsr edilmiş Xalq çalğı alətləri ifaçılarının I Respublika müsabiqəsində kollecin II kurs tələbəsi Xasay Gülməmmədov III yerə layiq görülmüşdür.

İnstrumental ifaçılıq (fortepiano) ixtisası üzrə III kurs tələbəsi **Aysel Sədiyeva** Bakıda keçirilən DEL Festival-Consorso İnternasional Delle ARTİ" Testne ART Baku. Beynəlxalq Müsabiqəsində I dərəcəli diploma layiq görülüb.

"İnstrumental ifaçılıq" (fortepiano) ixtisası üzrə II kurs tələbəsi **Əzət Məmmədli** "Konsertmeyster sinfi" üzrə Türkiyədə keçirilən CASPİ ART Uluslararası Sanat yarışmasında II yerə layiq görülmüşdür.



Rasim müəllim onu da qeyd etdi ki, gənc musiqiçi mütəxəssislərin gələcək pedaqoji və ifaçılıq fəaliyyətlərinin daha da inkişaf etdirilməsində və yeni-yeni uğurlar qazanmasında kollektiv daha əzmlə çalışır və yeni-yeni uğurlara imza atır.

Sumqayıt şəhərinin yubileyi ilə əlaqədar kollecdə tədbirlər planı tərtib edilmiş, planın yerinə yetirilməsi üçün direktorluq diqqəti bu sahəyə yönəltmiş və nəzarəti daha da artırmışdır.

**Zabit CAVADOV,**
**"Respublika".**